# O, şəxsiyyət idi

**Yuxudan qəfil ayıldım. Gördüyüm yuxunun həyəcanı nəfəsimi şiddətləndirmişdi. Ayılandan bir neçə saniyə sonra öz evimdə yatdığımı və yuxu gördüyümün anladım. Gördüyüm yuxunu yenidən yaddaşıma gətirdim. Deməli belə. Yuxuda görürdüm ki, tanış olmayan bir düzənlikdə gəzirəm, orada bribirindən aralı çoxlu iri gövdəli, uca qamətli ağaclar var. Mən bu ağacların boyüklüyünə, əzəmətinə, vüqarına heyranlıqla tamaşa edirdim və asta addımlarla həmin düzənlikdə narın otların üstü ilə gəzirdim. Birdən ətrafdakı sakitliyi vahiməli bir şaqqıltı və gurultu pozdu. Mən cəld dönüb səs gələn tərəfə baxdım. Bayaq əzəmətinə həsədlə baxdığım həmin iri ağaclardan biri yerə sərilmişdi.**

Mənə elə gəldi ki, bu ağacı ya ildurum vurdu ya da zəlzələ oldu. Ağacın iri budaqları mənim lap yaxınlığımda yerə çırpılmışdı və mən özümü təhlükədən qorumaq üçün sıçrayəb kənara atılmışdım. Elə həmin həyəcanlı anda yuxudan ayılmışdım. Sonra fikirlərimi cəmləşdirdim. Özözümə belə qənaətə gəldim ki, yəqin bir ay qabaq Şəki Xan sarayının həyətində 550 yaşı olan Xan çinarın böyük bir budağının sınıb düşməsi, aldığı zədədən gənc bir müəllimənin dünyasını dəyişməsi, bir neçə nəfərin yaralanması mənə psixi təsir edib və bu haqda çox düşündüyümə görə yuxumda da böyük bir ağacın qəfil aşıb düşməsini görmüşəm. Son vaxtlar internetdə psixoloqların hadisələrə münasibətlərini tez- tez oxuyuram və onların dediklərindən belə aydın olur ki, hansı hadisə haqqında çox düşünürsənsə, o səni çox üzür. O hadisə səni çox narahat edirsə, elə həmin movzuda da yuxular görməyin təbii haldır. Mən də bu yuxumu Şəki Xan sarayındakı faciəli hadisənin təsiri qənaətinə gəldim. Yerimdən durub idman formamı geyinib həyətə çıxdım və həmişəki kimi bir az gəzib gündəlik idman hərəkətlərini edib qayıtdım evə. Əl- üzümü yuyub səhər yeməyimi yeyib şəhərə çıxmağa hazırlaşdım. Və harada görüşəgəyimizi dəqiqləşdirmək üçün əziz dostum, şair Vaqif Aslana zəng etdim və biz görüş yerimizi təyin etdik. Biz qabaqlar şair Vaqif Aslanla Nakam kitabxanasının ikinci mərtəbəsindəki Azərbaycan Yazıçılar Birliyi Şəki bölməsinin geniş, işıqlı otağında görüşürdük. Bura Şəkidən, qonşu rayonlardan və Bakıdan gənclər- həvəskar yazarlar, tanınmış şairlər, müəllimlər, ziyalılar və şairin tələbələri gəlirdi. Həmin otaqda həmişə maraqlı görüşlər, elmi söhbətlər olurdu. Nakam kitabxanası və bütölikdə bina əsaslı təmir edildi. Amma təmirdən sonra Yazıçılar Birliyinin Şəki bölgəsinə həmin otaqlar qaytarılmadı. Bundan sonra biz müxtəlif çayxanalarda görüşürük. Bu dəfə də şairlə doqquz mərtəbəli otelin qarşısında yüzbaşının çayxanasında görüşdük. Bir az söhbətləşəndən sonra Vaqif Aslan mənə dedi ki, sən gözümə çox narahat dəyirsən, nə isə olub?

Mən gecə gördüyüm yuxunu şairə danışdım və həmin yuxunun mənə çox təsir etdiyini dedim. Şair bir neçə dəqiyqə düşünüb dedi ki, sənin yuxun hansısa pis hadisənin əlamətidir. Biz bir müddət də söhbətləşib çayxanadan çıxdıq və şairin adəti üzrə Bəxtiyar Vahabzadənin büstünün ətrafında gəzişdik. Yenə həmişəki kimi mənim tanıdığım və tanımadığım insanlar böyük hörmət və ehtiramla Vaqif Aslana yaxınlaşır görüşüb hal- əhval soruşub gedirdilər. Görüşdüyümüz insanlardan biri dedi ki, bəs xəbəriniz var Hacı Səlim əfəndi dünyasını dəyişib. Bu xəbər bizi sarsıtdı. Biz dəfn mərasiminin harada və nə vaxt təşkil ediləcəyini öyrənmək üçün mərkəzi cümə məsçidinə tərəf gedəndə şair dayandı və mənə dedi.

- Sənin yuxunun yozumu bilindi. Səlim əfəndi regionumuzda çox nüfuzlu ağsaqqal, ziyalı bir şəxsiyyət idi. Onun dünyasını dəyişməsi, vətən torpağına qovuşması iri gövdəli, böyük bir palıd ağacının qəfil yerə yıxılmasına bənzəyir. Biz dostumuz Ramiz Məmmədova zəng edib birlikdə mərasim yerinə getmək təklifi etdik və Ramiz müəlləm 10-15 dəqiyqədən sonra gəldi və bizi onun xidməti maşını ilə Şəkinin ,,Yuxarı Baş,, qoruq ərazisində Bəxtiyar Vahabzadənin ev muzeyinin yanındakı Səlim əfəndinin ata- baba evinə getdik. Yol boyu və mərasim yerində Səlim əfəndi haqqında xatirələr danışdıq və ətrafımızda danışılanları dinlədik. Hamı ona sonsuz hörmət və etram bəslədiyini xüsusi qeyd edirdi. Dostumuz Ramiz Məmmədov dedi ki, Sovet dövründə və müstəqilliyimizin ilk illərində, mən sahibkarlar işçiləri həmkarlar ittifaqı Şəki şəhər komitəsinın sədri işlədiyim zaman hətta bir çox dövlət müəssisələrini həmkarlar təşkilatlarına cəlb edib üzvülük haqqı toplamaqda çətinliklərimiz var idi. Hacı Səlim əfəndi isə müstəqil təşkilat olan məscidin bütün işçilərindın sosial müdafiə və həmkarlar ittifaqına ödənişlər olunmasına şəxsən özü nəzarət edirdi. O, yaşadığı ölkənin bütün qanunlarına hörmətlə yanaşırdı. Mən onu sadə, səmimi, mehriban və qayğıkeş, mövcud qayda- qanunlara nəzakətlə əməl edən bir insan kimi tanımışam.

Mənim isə Hacı Səlim əfəndi ilə ünsiyyətim daha köklü olub. Yazımın əvvəlində qeyd etdim ki, Səlim əfəndi ilə biz uzun illər qonşu olmuşuq və O, mənim böyük qardaşımla orta məktəb yoldaşı olub. Bizim evimizdə və başqa ictimai yerlərdə Səlim əfəndi haqqında tez-tez söhbətlər gedərdi və mən həmişə onun ləyaqətli, qeyrətli əməlləri barədə mülahizələr eşidərdim. Onun haqqında yaddaşımda olanlar budur ki, Səfərov Səlim Rəhim oğlu 1940- cı ildə Şəkidə dünryaya göz açıb. Orta məktəbdə təhsil aldıqdan sonra hərbi xidmətə gedib. Sonra yenə Şəkiyə qayıdıb və təmir- tikinti idarəsində yük maşını sürücüsü işləyib. 1970-ci illərdə Şəkidə rus dili müəllimi kimi tanınan, çox hörmətli bir ziyzlı Yusif Məmmədovdan ərəb və fars dillərində yazıb oxumağı və sonra Qurani-Kərimi öyrənib. O zamanlar sovet qanunlarına görə dini təhsil almaq və kiməsə Quranı öyrətmək tam məxvi aparılırdı. Səlim Səfərov bu işin öhdəsindən layiqincə gəlmişdi. O, həm dini təhsilini kamil başa vura bilmişdi, həm də məxfiliyi təmin etmişdi. Az vaxtda rayonda onu Qurani- Kərimin bilicisi kimi tanıdılar və O, gənc din adamı kimi yas mərasimlərinə dəvət olundu. Həmin illərdə Səlim Səfərov dəfələrlə Bakıda Qafqaz müsəlmanları idarəsində imtahan verib özünün ali ruhani biliyini nümayiş etdirmişdi. 1980-cı ildən O, bir neçə il Şəkinin Ömər əfəndi məscidində naibi imam və imam vəzifələrində çalışıb. Həmin illərdən başlayaraq Səlim əfəndi bir çox dövlət idarələrinə müraciətlər edib Texnologiya texnikumu və idman məktəbi kimi fəaliyyətdə olan tarixi mərkəzi cümə məscidinin binalarının geri qaytarılmasına 1985-cı ildə nail olmuşdur. Həmin ildə Səlim Səfərov Şəki mırkəzi cümə məscidinin imamı təyin edilb və məsciddə əsaslı təmir- bərpa işləri aparılmasına başlanılır. Eyni zamanda məscidin 1930-cu ildə tam bünövrəsinə qədər sökülən minarəsini yenidən tikdirib. 1985-ci ildə isə Səlim əfəndi Şimal-Qərb rəgionunda yeddi rayonun Qazisi təyin edilmişdir. Səlim əfəndi insanların rəylərini öyrənib o vaxtlar yas mərasimlərinin çox ağır keçirildiyini nəzərə alıb xeyli islahatlar apardı. Rəhmətə gedəni olanlar demək olar ki, 52- 55 gün işindən, sənətindən uzaq düşürdü. O, hər həftə qeyd edilən cümə axşamları toplantılarını və 52-inci günün qeyd edilməsini ləğv etdi. İnsanlar bunu çox müsbət hal kimi qarşıladılar. Sonra Səlim əfəndi yas mərasimlərində oxunan Quran və qılınan namaza görə məscidin mollalarının qiymət diqtə etməsini qadağan etdi. Göstəriş verdi ki, kimin imkanı nəyə çatır onu versın. Bütün bu islahatlar xalq tərəfindən çox böyük rəğbətlə qarşılandı və Səlim əfəndinin nüfuzu az vaxtda xeyli yüksəldi. Həmin illərdə mən Şəki radio verilişləri redaksiyasında böyük redaktor işləyirdim. 1985-ci ildə mən Şəki radiosunda ,,dini mərasimlər və yeniliklər,, adlı bir veriliş açdım və həmin islahatları xalqa çatdırmaq üçün Səlim əfəndini verilişə dəvət etdim. O, çox böyük məmnuniyyətlə həmin verilişlərə gəlirdi və maraqlə açıqlamalarla verilişimizdə iştirak edirdi. Onu da qeyd edim ki, həmin illərdə radio xətləri Şəkidə bütün evlərdə, idarə və müəssisələrdə, eyni zamanda 50- yə qədər kənd və qəsəbələrdə var idi və verilişlərimiz çox maraqla dinlənilirdi. Radionun təsir dairəsi geniş idi və dinləyiciləri fəal idilər. Eelə bir zaman idi ki, radioda bir mükəmməl söhbətlə hər hansı şəxs tanınıb rayonda məşhurlaşırdı. Ümumiyyətlə həmin illərdə din adamlarının mətbuatda- radioda çıxış etməsi özü sensasiyalı bir hadisə idi və Səlim əfəndinin radioda çıxışı həm radionun həm də Səlim əfəndinin nüfuzunu artırırdı. Sonra mən hər həftənin cümə günü dini verilişin vaxtını artırdım. Dövlət orqanlarından mənə təsirlər olurdu, amma bir təhər yola verib verilişləri davam etdirirdim. Sonralar Səlim əfəndi Şəki cümə məscidində uşaqlar və gənclər üçün mədrəsə açdı. Burada təhsil alan uşaqlar məscidin hesabına gündə üç dəfə yemək və yatacaqla təmin olundular. Bir müddətdən sonra həmin sahəyə diqqət və qaygı daha da artırıldı və həmin mədrəsədə hafizlər yetişdirilməsinə başlandı. İndi həmin mədrəsənin hafiz məzunları dünyanın bir çox nüfuzlu ali dini məktəblərində fəaliyyət göstərən tanınmış din xadimləridirlər.



Hacı Səlim əfəndinin iştirakı ilə radioda verilişlərimiz uzun illər davam etdi. Ən maraqlısı o idi ki, Hacı Səlim əfəndi Türkiyədən gələn qonaqlarını, dünyada tanınan din xadimlərini radioda verilişlərimizə qonaq gətirirdi və onlarla mənim müsahibələrim çox maraqlı alınırdı. Hər verilişdən sonra redaksiyamıza xeyli razılıq, minnətdarlıq, təşəkkür məktubları gəlirdi, telefon zəngləri olurdu. O, Şəkidən kənara gedəndə verilişlərimizə məscidin savadlı gənclərindən ən yaxşısı kimi Kamran əfəndini göndərərdi. Bu gün Kamran əfəndi Şəki cümə məscidində bölgə Qazisi kimi Hacı Səlim əfəndinin uzun illər tutduğu vəzifəni layiqincə davam etdirir.

Səlim əfəndi haqqında danışanda şahidi olduğum bir hadisəni də xatırlayıram. Azərbaycan öz müsəqilliyini bərpa edəndə Şəkidə Çingiz Əfəndiyev icra başçısı idi. O, əvvəllər uzun illər Şəki İpək kombinatında rəhbər vəziyfələrdə işləmişdi, hörmətli, nüfuzlu, regionda tanınmış insan idi. O vaxtlar ölkəmizin hər yerində sürətlə hakimiyyət dəyişikliyi aparılırdı. İndiki icra hakimiyyətinin boyük zalında Şəki ictimaiyyəti toplanmışdı. Gündəlikdə bir məsələ var idi. Yeni kadrların təyinatı. İclasın sonuna yaxın bu kadr dəyişikliyinə xeyir- dua vermək üçün Hacı Səlim əfəndiyə söz verildi. O, sakit, təmkinli addımlarla tribunaya yaxınlaşdı və Şəkinin həmin dövrdəki çətinliklərini, işıq, qaz, hətta çörək və gündəlik ərzaq problemlərini zalda oturanların nəzərinə çatdırdı və təklif etdi ki, səriştəsiz adamları hakimiyyətə gətirilməsinə tələsmək lazım deyildir. Zalda bu təklifi bəyənənlər çox oldu amma Bakıdan gələnlər təkid etdilər və bütünlüklə dəyişilməni əsas götürdülər. Rayonun mövcud vəziyyəti nəzərə alınmadan verilən belə qəti qərara etiraz edən Hacı Səlim əfəndi bu işə xeyir- dua verməyib tribunadan düşüb bir başa zaldan çıxıb getdi. Zaman sübut etdi ki, Hacı Səlim əfəndinin təklifi həm xalqın, həm də dövlətin xeyrinə hesablanmışdı. O haqlı idi!



Şair Vaqf Aslan Hacı Səlim əfəndi haqqında danışarkən dedi ki, mənim Səlim əfəndi ilə yaxından tanışlığım 1999-cu ilin baharı ərəfəsinə təsadüf edir. Sovet dövründə kommunist, ölkəmizin müstəqillik illərində hacı olan bir nəfər mənə70 yaşı olduğunu xatırlatmışdı. Mən də ictimai əsaslarla fəaliyyət göstərən Azərbaycan Yazıçılar Birliyi Şəki bölməsinin adından İcra Hakimiyyəti başçısına və bölgə qazisinə məktubla müraciət etmişdim. Məktub yaxşı qaşılanmışdı. Mənim Səlim əfəndi ilə yaxından tanışlığım elə o zamandan başladı. Biz hərdən görüşüb söhbətləşirdik. Hacı Səlim əfəndi Şərqin dahi şəxsiyyətləri Fəxri Gürgani, Nasir Xosrov, Qətran Təbrizi, Sənai Qəznəvi, Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi kimi nəhənglərin yaradıcılığı ilə yaxından tanış idi və onların əsərlərini orjinaldan oxuyurdu. Onları bildikdən sonra Səlim əfəndi mənə elm və ürfan bilicisi təsiri bağışladı. Mən bir dəfə də onun şəxsi hesabına 60-70 adamlıq banket məclisində iştirak etmişəm və O, hər bir kəsin banketdə sərbəstliyini elan etməsinin şahidi olmuşam. Səlim əfəndi Şəki əhəmiyyətli hər bir işə salınan bağa, çəkilən yola, tikilən binaya, keçirilən tədbirlərə xeyir-dua verməyi özünə borc hesab edirdi. Elin toyu və yası onun üçün həyat və yaşamaq amalı idi. İnsan həyatının hər üzünü görən və geniş dünya görüşü ilə qiymətləndirməyi bacaran Hacı Səlim əfəndi elimizin, bölgəmizin tanınan, sayılıb seçilən adamı və nüfuzlu şəxsiyyət idi. Sevilirdi və insanlar tərəfindən dəyərləndirilirdi. Cənnətlik olsun!



Başqa bir dostumuz, bütün Azərbaycanda pasionat Ramiz kimi tanınan iş adamı Ramiz Məmmədov Səlim əfəndi haqqında öz fikirlərini deyərkən qeyd etdi ki,

- Mən Səlim əfəndi ilə uzun illər ünsiyytdə olmuşam.Onunla səmiymi dostluq munasibətimiz olub. İkimizin də ürəyimizdən narahatlığımız olduğuna görə dəfələrlə birlikdə Bilgəhdəki kardioloji sanatoriyaya gedib həm istirahət edirdik, həm də müalicə alırdiq. Mən görürdüm ki, Səlim əfəndi boş vaxtlarında başqaları kimi domino, nərd oyunları ilə məşğul olmurdu. O, vaxtını mütaliə ilə keçirirdi. Həm Şərqin dahilərinin həm də Avropanın klassiklərinin əsərlərini oxuyurdu. Səlim əfəndi böyük ziyalı bir insan idi. 2000-ci ilin payızında, təxminən noyabr ayında biz yenə Bilgəhdə sanatoriyada idik. Müalicələrimiz təzə başlamışdı. Axşama yaxın tanışlardan biri Şəkidən mənə zənc etdi və çox həyəcanla bildirdi ki, Şəkidə ixtişaşlar başlayıb vəziyyət hər dəqiqə ağırlaşır. Mən bu xəbəri Səlim əfəndiyə dedim O, Şəkiyə bir neçə adama zənc etdi bu xəbəri dəqiqləşdirib çox narahat oldu. O, çox vətənpərvər, doğma Şəkini ürəkdən sevən bir insan idi. Bir neçə dəqiyqə düşünüb qətiyyətlə dedi. Yox Şəkidə belə vəziyyət olduğu halda, mən burda istirahət edə bilmərəm. Bir onu deyə bilərəm ki, xalq həmişə haqlıdır. Biz bir neçə dəqiyqədən saonra mənim maşınımla Şəkiyə yola düşdük. O, Şəkini çox sevirdi. Allah ona rəhmət eləsin, yeri Cənnət olsun.

Söhbətimizin daha bir iştirakçısı, hazırda Şəki islam kolleginin direktoru Rəhman Nuri idi.

O dedi ki, Haçı Səlim əfəndi 1992- 93-cü illərdə bir neçə dəfə Türkiyəyə səfər edib orada tanınmış din xadimlərindən Veysəl Tatlı hoca, Mahmud Aytəkin hoca və başları ilə görüşüb müvafiq təlimatlar aldıqdan sonra gəlib Azərbaycanda ilk İslam mədrəsəsinin Şəkidə açılmasına nail oldu. Təbiidir ki, mədrəsənin fəaliyyətinə Azərbaycan qanunlarına uyğun icazə alınmışdı. İki ildən sanra Hacı Səlim əfəndi bir qədər də dərinə gedib mədrəsədə hafizlər yetişdirilməsinə başladı. 1995-ci ildə ilk iki hafizdən biri mən olmuşam. Biz 1996-cı ildə böyük tən-tənə ilə təşkil edilən imtahanda iştirak etdik və hafizlik adı aldıq. Hafizlik mərasiminə Bütün Qafqazın Şexülislamı Hacı Allahşükür Paşazadə həzrətləri, Türkiyədən Osman Nuri Topbaşın rəhbərlik etdiyi nümayəndə heyəti və bir çox fəxri qonaqlar təşrif buyurmuşdu. Bütün bunlar Hacı Səlim əfəndinin nüfuzu və hörməti sayəsində baş tutmuşdu. Sonralar öz fəaliyyətini bir qədər də genişləndirən mədrəsəmizə kollec statusu verildi və fəaliyyət imkanları ildən- ilə genişləndi. Yarandığı gündən indiyədək Şəki mədrəsəsində və kollecdə yüzlərlə uşaq və gənc dini təhsil alıb. Onlardan 250 nəfəri hafizlik dərəcəsinə yüksəlib. Hafizlərdən 90 nəfəri sonralar ali dini təhsil alıb. Hazırda 40 nəfər də təhsil almaqdadır. 13 nəfəri magistratura məzunudur, 5 nəfər də doktorantura təhsili alır. Məzun hafizlərimizdən ilahiyyət institutunda müəllim işləyənlər də var, ilahiyyət elmləri üzrə fəlsəfə doktoru olanlar da və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yüksək vəzifələrdə çalışanlar da vardır. Bizim məzunlarımızdan Azərbaycanın rayonlarında fəaliyyət göstərən məscidlərdə imam və naibi imam işləyənlər də vardır. Bu günə qədər 60 nəfər məzunumuz olan hafizlər Türk dilli dövlətlər arası və beynəlxalq müsabiqələrdə iştirak ediblər və əksər vaxtlar 1-ci, 2-ci və 3-cü yerləri tutublar. Bəziləri də birinci onluqda yer alıblar. Mən bunu xüsusi deməliyəm ki. qazanılan bütün nailiyyətlər Hacı Səlim əfəndinin zaman- zaman qayğısı, diqqəti və vətənpərvərliyinin nətiycəsində mümkün olmuşdur. Biz bütün nailiyyətlərə görə ona minnətdarlıq etməyə borcluyuq. Yeri behişt olsun.

2014-cü ildə Səlim əfəndi səhhətindəki problemlərlə əlaqədar öz ərizəsi ilə bölgə Qazisi vəziyfəsindən çıxıb. Amma Şəkinin din adamlarının xahişini nəzərə alan Qafqaz Müsəlmanlaı idaeəsi Hacı Səlim əfəndini mərkəzi cümə məscidinin dini icma sədri vəziyfəsində saxlayıb. O, ömrünün son gününə qədər həmin vəziyfədə qalıb.

Hacı Səlim əfəndinin qızı Fatimə xanım da atasının arzusu ilə kamil dini təhsil alıb və uzun illərdir Şəki mərkəzi cümə məscidində gənc qızlara Qurani- Kərimi öyrədir. Fatimə xanım həm də qadınların iştirak etdiyi yas mərasimlərinin fəal aparıcısıdır və orada onun xoş avazla oxuduğu Quran ayələri dinləyənlər tərəfindən yüksək dəyərləndirilir.

**Hacı Səlim əfəndi haqqında mərasimdə çoxları müsbət fikir və rəylər söylədilər. Bu deyilənlərin reallıqlar olmasının nəticəsidir ki, Şəkidə tarixən dini- ruhani problemlər olmamışdır. Şəkidə həmişə ziyalılar dini tolerantlığın təminatçısı olublar. Elə buna görə də Şəki türklüyün və müsəlmançılığın layiqlı mərkəzlərindən biridir. Allah Səlim əfədiyə rəhmət eləsin, yeri Cənnət olsun!**

**Çingiz Ənvəroğlu**